Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

# Böyük Qayıdışın daha təhlükəsiz və sürətli mərhələsi başlayır...

**Keçmiş məcburi köçkünlər uzun illər geri qayıdışın, yenidən öz el-obalarına, kəndlərinə, rayonlarına, şəhərlərinə qayıdacaqları günün xəyalı ilə yaşayıblar. Bu müqəddəs günü 30 ilə yaxın gözləyiblər. Amma bir gün onların xəyalları gerçəkləşib, qarlı, şaxtalı, yağışlı-yağmurlu gündə ayağı yalın, başı açıq öz evini tərk etməyə məcbur olan vətəndaşlarımız bu gün öz yurdlarına ləyaqətlə qayıdırlar.**

Məlum olduğu kimi, proses Prezident İlham Əliyevin Sərəncamı ilə qəbul edilən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində həyata keçirilir. Ermənistanın təcavüzü nəticəsində ölkəmizin bir ucundan o biri ucuna qaçmaq məcburiyyətində qalan məcburi köçkünlər torpaqlarımız işğaldan azad edildikdən sonra məcburi köçkün adını üstlərindən atıb keçmiş məcburi köçkün statusu qazandılar.

Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərə böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunub. Bu Milli Prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir.

### "...İlin sonuna qədər onların sayı 5500-ə çatdırılacaq"

İndiyə qədər azad ərazilərə nə qədər əhali köçüb? İlin sonuna qədər nə qədər keçmiş məcburi köçkünün qayıdışı nəzərdə tutulur?

Prezident İlham Əliyev sentyabrın 29-da Zəngilanda keçirilən "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimində çıxışı zamanı "artıq 2000-dən çox keçmiş məcburi köçkün evlərinə qayıdıb və ilin sonuna qədər onların sayı 5500-ə çatdırılacaq...Bu gün biz şahidiyik ki, Bakıdan, Sumqayıtdan, Gəncədən, Mingəçevirdən, digər şəhərlərdən kəndlərə axın baş verir. Bu, ilk növbədə onu göstərir ki, Azərbaycan xalqı öz vətəninə nə dərəcədə bağlıdır. Onlar öz vətənlərində, əcdadlarının vətənlərində yaşamaq istəyirlər"-deyə bildirib.

### "Növbəti 3 ildə 100 minə qədər köçkünün doğma yurd-yuvalarına dönməsi planlaşdırılır"

Prezident İlham Əliyev 10 oktyabr tarixində Şuşada keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 27-ci iclasının iştirakçılarına ünvanladığı müraciətdə də keçmiş məcburi köçkünlərin geri qayıdışı məsələsinə xüsusi tpxunub: "...İşğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış" proqramı milli prioritetlərimiz sırasındadır. Uğurla icra edilən proqram çərçivəsində bu günə qədər Laçın, Füzuli şəhərlərinə, Ağalı, Zabux və Talış kəndlərinə köçkünlərin qayıtması təmin olunub. Növbəti 3 ildə 100 minə qədər köçkünün doğma yurd-yuvalarına dönməsi planlaşdırılır. Həyata keçirilən layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına xidmət etməklə, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün əlverişli şərait yaradır".

Füzuli şəhərində artıq inşası başa çatmış məktəbə və tikilməkdə olan yaradıcılıq mərkəzinə görə qardaş Özbəkistana və Qazaxıstana təşəkkür edən dövlətimizin başçısı bunu ölkələrimiz arasında qardaşlığın, həmrəyliyin və dostluğun növbəti bariz təzahürü kimi qiymətləndirib.

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Oktyabrın 13-də növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Füzuli şəhərinə daha 22 ailə - 62 nəfər köçürülüb.

Oktyabrın 14-də də növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Füzuli şəhərinə daha 28 ailə - 117 nəfər köçürülüb.

Qeyd edək ki, köçürülən ailələr Füzuli şəhərində yenidən tikilən evlərdə məskunlaşacaqlar.

Bununla da Füzuli şəhərində 258 ailə, yəni 928 nəfərin daimi məskunlaşması təmin edilib.

Oktyabrın 16-da Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən Laçın şəhərinə növbəti köç karvanı yola salınıb.

Bu mərhələdə Laçına daha 26 ailə (96 nəfər) köçürülüb.



Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Daha da gözəlləşən və abadlaşan Laçın şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər. Köçürülən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar. Bununla da Laçın şəhərində 272 ailə, yəni 1052 nəfərin daimi məskunlaşması təmin edilib.

### Böyük Qayıdışın daha sürətli mərhələsi başlanır...

"Böyük Qayıdış" proqramının yüksək səviyyədə icra olunduğunu deyən "Qarabağa aparan yol" qəzetinin baş redaktor müavini, yazıçı-publisist Fariz Çobanoğlu "Bakı-Xəbər"ə şərhində bildirdi ki, "Böyük Qayıdış" proqramının müəllfi Prezident İlham Əliyevdir və o, 20 illik Prezidentliyi dövründə bizi o torpaqlara addım-addım yaxınlaşdırdı və nəhayət torpaqlarımız azad edildi. "Biz uzun illər öz torpaqlarımıza qovuşacağımız günün həsrətilə yaşamışıq. 44 günlük Vətən savaşında torpaqlarımız işğaldan azad edildi. Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli ordumuzun işğaldan azad etdiyi rayonlardan biri də doğulduğum Cəbrayıl rayonudur. Bu bizi hədsiz dərəcədə sevindirdi və artıq bizim öz yurdumuza, yuvamıza qayıdışımız başlayıb. Zəngilan, Laçın, Füzuli və başqa rayonlarımıza əhalimiz geri qayıdıb, təbii ki, proses mərhələli şəkildə gedir. Cəbrayılda da yenidən qurma və bərpa işləri gedir. Məlumatıma görə, şəhərin baş plana əsasən, 2026-cı ilin sonunadək şəhərdə təqribən 3 800 nəfərin yerləşəcəyi, 2040-cı ilin sonuna qədər isə 15 000 sakinin yaşayacağı gözlənilir. Əlbəttə, bu bizi sevindirir, kəndlərimiz bərpa edilir, ərazilərimizdən erməni vandallarının izləri silinir. Bilirsiz ki, Azərbaycan dövləti bu işi təkbaşına edir, beynəlxalq qurumlar yenə də bizim işlərə dəstək vermək istəmir. Amma Azərbaycan dövləti bu istiqamətdə geniş fəaliyyətini davam etdirir, azad ərazilərimiz tamamilə yenidən qurulur, artıq qurulanlar da var. Biz Laçında. Zəngilanda, Şuşada görülən işləri qeyd edə bilərik.

Lokal antiterror tədbirlərindən sonra Xankəndə də artıq azaddır, Xankəndidə Azərbaycan bayrağı dalğalanır. Ali Baş Komandanımız İlham Əliyev oktyabrın 15-də Xankəndidən Azərbaycan xalqına müraciət etdi. Artıq biz torpaqlarımızın bütünlüyünü təmin etmişik. Bu gün keçmiş məcburi köçkünlərin geri qayıdışı üçün təhlükə artıq arxada qalıb. Hesab edirəm ki, Xankəndiyə, Xocalıya, Ağdərəyə və başqa yerlərimizə də Böyük Qayıdış başlayacaq. Artıq orada təhlükəsizliklə bağlı problem yoxdur. Müsbət haldır ki, biz uzun illərdən sonra bütün ərazilərimizə qayıdtıq.

Düzdür, hələ mina təhlükəsi var və onu da öz gücümüzə aradan qaldırırıq. Amma beynəlxalq aləm bizə dəstək olmalıdır"-deyə F.Çobanoğlu qeyd etdi.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**